# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 250/1** **31 yanvar 2014-cü il**

**Auditorlar Palatası Şurasının yanında "Auditorların Peşə Etikası Komitəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın "Etik davranış qaydalarının təkmilləşdirilməsi"nə dair 10-cu bölməsinin və "Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən Komitələrin işinin yenidən qurulması haqqında" Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2013-cü il 27 avqust tarixli 244/2 №-li qərarının 6-cı bəndinin icrası ilə bağlı Auditorların Peşə Etikası Komitəsinin sədri Y.Salayevin məruzəsini dinləyərək və təqdim olunmuş "Auditorların Peşə Etikası Komitəsi haqqında Əsasnamə"nin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditorların Peşə Etikası Komitəsi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2010-cu il 2 noyabr tarixli 213/2 saylı qərarı ilə təsdiq edilmiş "Auditorların Peşə Etikası Komitəsi haqqında Əsasnamə" qüvvədən düşmüş hesab edilsin.
3. Auditorların Peşə Etikası Komitəsinin sədri Y.Salayevə tapşırılsın ki, Komitənin fəaliyyətini "Auditorların Peşə Etikası Komitəsi haqqında Əsasnamə"nin müddəalarına uyğun olaraq təşkil etsin.
4. Auditorların Peşə Etikası Komitəsinin sədri Y.Salayevə və Palatanın Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi M.Abbasova tapşırılsın ki, Palata üzvləri tərəfindən etik davranış qaydalarının pozulması halları üzrə araşdırmalar aparılarkən bu Əsasnamənin tələblərinə riayət etsinlər.
5. Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova və Sədrin müşaviri R.Ələkbərova tapşırılsın ki, bu qərarın və "Auditorların Peşə Etikası Komitəsi haqqında Əsasnamə"nin mətni ingilis və rus dillərinə də tərcümə olunmaqla Palatanın internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**